*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 382-389*

https://doi.org/10.62837/2026.1.382

**NURİDƏ İSMAYIL**
Bakı Dövlət Universiteti, magistrant
Nurideismayil4444@gmail.com
Orcid: 0009-0002-6759-2613

# ÖLÜM METAFORASININ SÜKUNƏT ÇALARI VƏ YA SÖZÜN ÜSYAN MƏQAMI

(Cəlil Məmmədquluzadənin "Ölülər" pyesi əsasında)

**Özət**

Məqalədə görkəmli nasir, dramaturq və publisist Cəlil Məmmədquluzadənin "Ölülər" pyesi təhlilə cəlb olunur. Məqsəd Azərbaycan ədəbiyyatı tarixində müstəsna əhəmiyyətə malik bu əsərdə şərti-metaforik mənalandırmaların əsl mahiyyətini üzə çıxarmaqdır. Bu, tragikomediyanın ideya-bədii tutumunu daha dürüst və müəllif məqsədini təhrif etmədən ifadə etməyə imkan yaradır. Belə ki, Cəlil Məmmədquluzadənin ölüm fenomeni bu anlayışın bütün məna qatlarını yüksək sənətkarlıqla ifadə edir. Nəticədə məlum olur ki, ölüm yalnız İskəndərin mübarizə apardığı mühitin cəhalət və fanatizmini deyil, həm də bunlardan doğan statikliyi, qəbir sükutunu ifadə edir. Bu bəlaların səbəbi isə mühitin mənəvi puçluğu, çürük etiqadları ilə yanaşı, onlara təsir göstərməyi bacaran və kütlənin psixologiyasına dərindən bələd olan Şeyx Nəsrullahların mövcudluğudur. Lakin müəllifin əsas məqsədi məhz Nəsrullahın fəaliyyətinə zəmin hazırlayan mühiti kəskin və barışmaz mövqedə ifşa etməkdir.

**Açar sözlər:** Cəlil Məmmədquluzadə, ölülər, metaforizm, ətalət, tənqid, kinayə

## Giriş

Azərbaycan ədəbiyyatı tarixində tənqidi-realizm cərəyanının görkəmli nümayəndəsi, "Molla Nəsrəddin" ədəbi məktəbinin yaradıcısı Cəlil Məmmədquluzadənin əsərlərinin dəyərləndirilməsi onun "yaşadığı epoxanın şəxsiyyətinə yansıyan ədəbi, sosial və psixoloji təsirlərin üzə çıxarılması" (12, s.24) baxımından olduqca önəmlidir. Çünki müəllifin yaradıcılığı həmçinin yaşadığı dövrün ədəbi salnaməsi kimi mühüm dəyər daşıyır. Cəlil Məmmədquluzadənin yaradıcılığında mühüm yer tutan "Ölülər" pyesi yalnız XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının deyil, milli dramaturgiyanın şah əsərlərindən biridir. Əsər Mirzə Cəlil üslubunda xüsusi yer tutan və yeni çalarlar qazanan şərti-metaforik deyim tərzləri ilə zəngindir. Birinci pərdədə İskəndərin gülüşləri və kefliliyi fonunda tamaşaçını müəllifin yaradıcılıq laboratoriyasına daxil edən elementlər sonuncu səhnədə onun monoloqu ilə ölümün fəci manifestinə çevrilir. Bu pyesdə ölümün əxlaqsızlıq, sükut, mənəviyyatsızlıq, dini fanatizm, cəhalət, mütilik kimi semantik

çalarları yaranır. Əsərdə ölüm həmçinin ətalət, durğunluq, statiklikdir. Bu həm qəbiristanlıqdakı, həm də həyatdakı ölülərin timsalında məlum olur. Pyesdə real ölülərin nitq və hərəkətləri əyani əksini tapmasa da, bu mühitdə yaşayan və bu mühitdə ölən insanların ölümləri ilə yaşamları arasında fərq olmadığı labüddür.

Olum və ölümün arasında bərabərlik qoyan Mirzə Cəlil əsərdə yalnız İskəndərin timsalında bu paralelliyi pozur. Yaşadığı şəhərdə həmvətənləri ilə eyni fiziki varoluşu yaşayan İskəndər onlardan fərqli olaraq insan kimi əxlaqi, vətəndaş kimi milli, fərd kimi zehni düşüncə və hisslərin fövqündədir. Bu səbəbdən İskəndərin səsi fərdi və milli müstəvidən çıxıb zaman və məkan sərhədlərini aşaraq bu gün üçün də aktuallıq kəsb edir.

**Mühitin təhsil problemi**

Ölü mühitin ətaləti birinci növbədə sələf-xələf münasibətinin dinamikliyinin olmamasında (olarsa, Kefli İskəndər kimi istisna halda ola bilər) özünü göstərir. Belə ki, nəsillərarası təfəkkür və əxlaq prinsipləri baxımından ataları təmsil edən Hacı Həsənlər, Hacı Kərimlər, Hacı Bəxşəlilər "Gülüstan"ı oxumaqla ilkin təhsillərini almışlar və kiçik qızlarla evlənməklə, ölən əqrəbalarının malını və ailəsini ələ keçirməklə ömür sürməkdədirlər. Əgər övladlarına ali təhsil versələr, o oğullar da gəlib Heydər ağa və Əliqulu bəy kimi "palaza bürün, ellə sürün" fəlsəfəsinə əsasən, ataların yolunu davam etdirəcəklər. Beləcə zəncir qırılmadan təkrarlanır və ölüb torpağa dəfn edilən ölüdə heç bir təkamül olmadığı kimi, bu mühitdə də təkamül yoxdur. Əsərdə yeganə ayıq obraz olan Kefli İskəndər düşdüyü fərqli mühitlər və aldığı təhsil nəticəsində "İrəvan şəhərlərinin birində" yaşayan əhalidən fərqləndiyi üçün sistemin içindən çıxan və tamam fərqli xüsusiyyətlər kəsb edərək qayıdan, amma artıq yerinə oturması mümkün olmayan bir elementdir. Dilmanc və teleqrafçı obrazlarından fərqli olaraq İskəndərin sosiumun əxlaq və təfəkkür normalarına uymaması onun milli təəssübkeşlik hissindən, daxili məninin kamilliyindən irəli gəlirdi.

Professor Təyyar Salamoğlu əsərin əvvəlində Mirzə Cəlalın müəllimdən dərs alması hissəsinə toxunaraq qeyd edir ki, bu təhsili geridəqalmış adlandırmaq düzgün deyil, çünki zamanla İskəndər də bu cür təhsil almış və bu kitabları oxumuşdur (11, s.133). Amma istisnaların qanunauyğunluğa təsir göstərmədiyini nəzərə alsaq, İskəndərin ölü mühitdən fərqlənməsi onun öz təbiətindən irəli gəlirdi. Hətta bunu onun Avropa təhsili ilə bağlamaq imkanını da Cəlil Məmmədquluzadə məhdudlaşdırır. Çünki müəllif İskəndərin mütərəqqiliyini yalnız təhsillə əlaqələndirmək istəsə, əsərdə dilmanc və teleqrafçı obrazlarını yaradaraq oxucunu dilemma qarşısında qoymazdı. Xalid Əlimirzəyev Mirzə Hüseynin verdiyi ənənəvi təhsilə daha düzgün qiymət verir. Tədqiqatçı məsələyə bir insan kontekstində deyil, nəsillər baxımdan yanaşır: "Bu o "elm"dir ki, Mirzənin səylə çalışmasını tövsiyə etdiyi balaca Cəlallar onu az oxusa, Hacı Həsənlərə, Hacı Baxşəlilərə, Mir Bağır ağalara, bir qədər çox oxusa, Şeyx Nəsrullahlara, Şeyx Əhmədlərə oxşayacaqdır" (2,

s.114). Fikrin davamı kimi qeyd edə bilərik ki, əgər mühitdən uzaqlaşıb "Firəng"də elmlərini artırsalar, ya teleqrafçı ilə dilmanc kimi anlamaq hissini daimi komfort zonada olmağa qurban verəcəklər, ya da Kefli İskəndər kimi əbədi əzab çəkəcəklər: həm mühitin eybəcərliyinin əzabını, həm də heç bir fəaliyyət göstərə bilməməyin vicdan əzabını.

**"Mömin" cəmiyyətin "kefli" nümayəndəsi**

İskəndər məşhur monoloqunda deyir: "Mən dünyada heç bir şeyəm. Əgər mən bir şey olsaydım, cibimdən bir bomba çıxarıb (əlini uzadıb cibindən araq şüşəsini çıxardır) bu evi bir saniyənin içində havaya dağıdıb, İsfahan lotusunu kərpiclərin altında diri-diri dəfn edərdim" (9, s.388). Məhz bu sözlər İskəndərin fəaliyyətsizlikdən doğan vicdan əzabını göstərir. Tədqiqatçılar İskəndərə ziddiyyətli yanaşmış, bəzən heç bir iş görmədiyi, gücü yalnız dilinə verdiyi üçün onu qınamış, bəzən isə müsbət münasibətdə olmuşlar. İskəndərə ziddiyyətli münasibət müəyyən dövrdə "C.Məmmədquluzadə irsinə olan yanlış münasibətlə" və "klassik irsə müəyyən dərəcədə etinasızlıqla bağlı idi"sə (3, s.48), bəzən isə əsərə və obrazlara fərqli prizmalardan yanaşmaq cəhdlərindən doğurdu. Məsələn, yazıçı Anar İskəndəri müsbət qəhrəman adlandırmağın çətin olduğunu vurğulayır, çünki o, əməli fəaliyyətə keçmir (1, s.20). Professor Cəlal Qasımov isə mühitin yarımallah səviyyəsinə qaldırdığı Şeyx Nəsrullahı təhqir etdiyinə görə Kefli İskəndəri cəsarətli hesab edir (8, s.97). Hər iki alimin fikri obyektiv xarakter daşıyır və əsaslandırılmış şəkildə ifadə olunur.

Amma bəzən İskəndərə qarşı olan tənqidi fikirlərdə obraz sözün əsl mənasında şərlənir. Onun sərxoş olması məsələsinə də ədəbiyyatşünaslıqda fərqli baxışlar mövcuddur. Bəzən tədqiqatçılar onun içkini müdafiə vasitəsi kimi, sözünü mühitdə açıq demək üçün içdiyini (C.Qasımov), bəziləri isə ayıq gözlə bu dərdlərə dözməyin mümkünsüzlüyündən içdiyini qeyd edir (Anar). Obrazı şərləyənlər isə onun daim sərxoş olmasını mənfi bir məziyyət kimi qabardır (C.Cabbarlı). Fikrimizcə, ilk iki yanaşmanın doğruluğuna şübhə yoxdur və bədii mətn özü də bunu dönə-dönə sübut edir. İskəndərin monoloqundakı "Şeyx Nəsrullah burada gecələr bu uşaqları boğanda mən bu şüşədən araq içərdim" (9, s.388) cümləsi onun şeyxin əxlaqsızlıqlarının mahiyyətini bildiyi üçün çəkdiyi əzabı göstərir. Digər bir məqamı isə Xalid Əlimirzəyev yerində vurğulayır. Şeyx Nəsrullahla iynəli satira ilə danışdıqdan sonra məclisi tərk edən İskəndərin dalınca bir neçə nəfər deyinə-deyinə qaçanda Hacı Həsən deyir: "Yavaş! Yavaş! Səbr eləyin. Mən özüm onun tənbehini elərəm. Hacı Baxşəli, Hacı Kərim, Hacı Kazım! Cahıl-cuhulu sakit eləyin, mən özüm o məlunun öhdəsindən gələrəm!" (9, s.365). Bu sitata diqqət çəkən Xalid Əlimirzəyev gəldiyi qənaətlə İskəndəri tutarlı şəkildə təmizə çıxarır: "İskəndərin elə bu ilk çıxışı göstərir ki, onun şeyxə qarşı mübarizədə passiv hərəkət etdiyini iddia edənlərin fikirləri qətiyyən həqiqətə uyğun deyildir" (2, s.121). Müəllif bununla

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 382-389*

İskəndərin fikirlərini açıq-aşkar ifadə edən zaman təhlükə ilə üzləşdiyini sübut edir. Deməli, onu bu təhlükədən qorumaq üçün vasitə lazım idi.

İskəndər obrazının şərlənməsinin ideoloji səbəbləri olmuşdur. Sovet siyasi rejimi dönəmində ədəbi əsərlərə qarşı repressiyanın "Ölülər"dən – İskəndərdən başlaması simvolik olaraq ölü mühiti ayıltmaq istəyənlər üçün də bir gün bu məhkəmənin qurulacağını ifadə edir. Bu məhkəmədə ifadə olunan fikirlər və ondan sonra mətbuatda İskəndərin əleyhinə səsləndirilən fikirlər dövrün diktəsindən irəli gəlir və obyektiv mövqeyi əks etdirmirdi. Həmin materialları dərin təhlilə çəkən professor Cəlal Qasımov məhkəmədə İskəndərə mənfi münasibətin əsassızlığını və səbəblərini tutarlı faktlarla sübut etsə də, məhkəmə iştirakçılarının (prokuror rolunda çıxış edən Cəfər Cabbarlının) bu məhkəmənin ölüm və ətalət mühitinə müəyyən qədər mülayim münasibətinin üzərində geniş durmur. Lakin sovet diktəsi mühiti oyatmağa çalışan Kefli İskəndərləri qınadığı və artıq 20-30-cu illərdə İskəndərin real xələflərini ölümə və həbsə məhkum etdiyi kimi, Nəsrullahın asanlıqla təfəkkür və vicdan əsarətinə saldığı ölülər mühitini də özü üçün bir o qədər məqbul sayırdı.

Məhkəmədən sonra İskəndərin təqsirnaməsində yazılır: "Əvvəla, İskəndər əxlaqca zəifdir... hər kəsə sataşır, mənasız olaraq it küskürür... Saniyən, iradəcə zəifdir. Bacısı Nazlıya o qədər də ciddi bir şey yoxkən yaşadıqları mühitdən çıkıb getməyi təklif etdiyi halda sonradan fəlakət gəlincə yardım belə etməyir..." (8, 119) Əsərdə İskəndərin "it küskürdüyü" epizodu yalnız gülüş üçün süjetə əlavə olunmuş məqam hesab etmək ən azından Cəlil Məmmədquluzadənin üstündə səylə çalışdığı Kefli İskəndər obrazına qarşı haqsızlıq olardı. İskəndər iti məhz Kərbəlayı Fətullahın dirilmə xəbərini eşidib Hacı Həsənin üzərinə qaçan bir kişiyə və bir məşədiyə "küskürür". Süjetin davamında bu xəbərə inanan bu insanların dini fanatizmi, qəbiristanlıq səhnəsində isə bütün mənəvi-əxlaqi keyfiyyətlərini nəfsləri ucbatından itirdikləri və hətta qatilə çevrildikləri görünür. Qeyd edək ki, konkret həmin iki şəxsin sonrakı fəaliyyəti ayrılıqda verilməsə də, ölülər mühiti daxilində olduqları üçün onlar da mühitin xüsusiyyətlərini daşıyır. Beləliklə, pyesin ilk səhnəsində İskəndərin ölü mühitə etirazı məhz it "küskürtməklə" özünü göstərir.

Təqsirnamədəki bacısı Nazlıya "o qədər də ciddi bir şey yoxkən" buraları tərk etməklə bağlı fikirlər səsləndirməsi məsələsi də mühitin Şeyx Nəsrullah gələnə qədər də ölü olduğunu pərdələmək mahiyyəti daşıyır. Birincisi, bir ailə miqyasında götürsək, Nazlı ölmüş bacısının əri, özündən təxminən 25 yaş böyük Mirbağır ağaya nişanlı idi ki, bunun özü tənqid olunmalı ciddi məsələlərin olduğunu göstərir. Digər tərəfdən isə əsərdə qəbiristanlıqda insanların Nəsrullaha qədərki həyat prinsiplərinin puçluğunun, normal mənəvi-əqli keyfiyyətlərə malik adam üçün burada yaşamağın mümkünsüzlüyünün əks olunmasıdır. Deməli, İskəndər bacısına buradan getməyi təklif edəndə kifayət qədər ciddi problemlər var idi.

Təbii ki, sovet dönəmində də İskəndərə kifayət qədər obyektiv münasibət bildirən və mənən İskəndəri anlayan tədqiqatçılar olmuşdur. Məsud Əlioğlu hələ 50-

ci illərdə İskəndəri "qızğın idrak sahibi, qəlbən çox təmiz, namuslu, əxlaqlı bir adam" (13, s.37) adlandırırdısa, Mirzə İbrahimov 30-cu illərdə İskəndərin "ağır töhmətə layiq olmadığını" yazırdı (6, s.137). Əziz Mirəhmədov isə "Ölülər"də İskəndər obrazını daha mübariz xarakterə malik obraz kimi səciyyələndirməyə imkan verən və əsərin əlyazmasında silinən parçaların çarizm dövründə senzuradan keçmədiyini qeyd edir və yazırdı: "Bir sual da ortaya çıxır: bəs nə üçün bu parçalar sovet dövründə, məsələn, əsərin 1925-ci ildə, müəllifin sağlığında buraxılmış nəşrində bərpa edilməmişdir? Bu sual ətrafında xüsusi işləmək, tədqiqat aparmaq lazımdır" (10, s.358). Müəllif bu fikirləri 1965-ci ildə – sovet siyasi rejimi dönəmində yazdığından 1925-ci il nəşrində həmin hissələrin bərpa edilməmə səbəbini qeyd edə bilmir. Çünki mübarizlik və üsyankarlığın təbliği sovetin ideologiyasına da uyğun gəlmirdi. Amma yuxarıda Cəlal Qasımovun "Ədəbi məhkəmələr" kitabından gətirdiyimiz misallar artıq müstəqillik dövründə bu problemə işıq salındığını göstərir.

Ölülər mühitinə güzəştli, amma obyektiv münasibət bəzən son illərdə də özünü göstərir ki, burada artıq məsələyə heç bir ideoloji basqı olmadan, sadəcə fərqli rakursdan yanaşma görürük. Fikrimizcə, bu, mətni dərin qatlarına qədər incələmək üçün tutarlı mövqedir. Xüsusən Hacı Həsən obrazına qarşı tədqiqatçılar həmişə nisbətən yumşaq davranır. Təyyar Salamoğlu: "Ədəbiyyatşünaslıq Hacı Həsən ağanın içindəki tərəddüd işığının tez sönməsini əsas gətirərək onu "ölülər" cərgəsindən ayırmır. Əslində isə, Hacı Həsən ağanın içindəki tərəddüd kifayət qədər davamedici xarakter daşıyır" (11, s.146). Xalid Əlimirzəyev də Təyyar Salamoğlunun qeyd etdiyi tərəddüd məsələsini və Hacı Həsənin övladlarına təhsil üçün şərait yaraması məsələlərini qeyd edərək obrazı nisbətən mühitdən fərqləndirsə də, sonda Hacı Həsən ağanın Nəsrullahın əməllərinə zəmin yaratdığı üçün cinayətkar olduğu və haqlı olaraq Mirzə Cəlilin bu obraza heç vaxt güzəştlə yanaşmadığını vurğulayır (2, s.157). Həqiqətən, məsələyə Mirzə Cəlilin dünyagörüşü kontekstində yanaşsaq, o, problemi doğuran səbəbləri islah yox, tam dəyişmə tərəfdarı idi. Ona görə də Hacı Həsənlər mühitinə güzəştlə yanaşa bilməzdi. Məhz Firidun Hüseynov "Molla Nəsrəddin" ədəbi məktəbinin davamı olan "Babayi-Əmir" jurnalından bəhs edərkən bu jurnalın "Molla Nəsrəddin" jurnalı kimi baltanı dibdən vura bilmədiyini" (5, s.55) qeyd edir.

Ətalət mühitində Hacı Həsənin İskəndəri oxumağa göndərməsi də ayrıca bir məsələdir. Bəzən bunu obrazın nisbətən mütərəqqiliyi ilə, bəzən "bir para namərdlərin" təhriki ilə etdiyi məlum olur. Maraqlı məqam ondan ibarətdir ki, Hacı Həsən bu məsələni belə ifadə edir: "Yəni mən başı küllü bilirdim ki, axırı belə olacaq. Amma qoymurlar; vallah, billah bu adamlar qoymurlar ki, xalq başını salsın aşağa, öz bildiyini eləsin" (9, s.347). Həqiqətənmi, Hacı öz oğlunun sonda "kafir" olacağını bilə-bilə oxumağa göndərmişdi? Bizcə, yox. Həmin adamlar Hacıya demişdilər ki, oxuyub gəlsin, qulluq sahibi olsun. Burada onlar Axundovun Şahbaz

bəyi təfəkküründədirlər. Milli təəssübkeşlik yoxdur. Kərbəlayı Fatma da "xalqın uşaqlarının dərs oxuyub qulluq sahibi olmasından", İskəndərin heç bir şey olmamasından şikayətlənir (9, s.354). Bu məqamda Hacının dediyi obrazları tam mütərəqqi hesab etmək olmur. Ən azından onlar ziyalı obrazlarının inkişaf dinamikası baxımından keçən əsrin ziyalısı (Şahbaz) təfəkküründə qalıblar. Digər tərəfdən Şeyx Nəsrullahın gəlişi ilə ölülər mühiti lərzəyə gələndə İskəndərdən başqa təəssübkeş ziyalı obrazı meydanda görünmür. Beləliklə, mühitin ətaləti yenə də aradan qalxmır. "Onlar ölülərin dirilməsi əhvalatına cani-dildən inanmaqlarıyla dərin bir yuxuya, ölüm yuxusuna batırlar və yuxunun axırı çox pis sonlanır – onlar bu yuxudan gerçəkliyin sərhədinə adlaya bilmirlər" (14, s.12).

**Kütlənin psixologiyası**

Tədqiqatçının təbirincə desək, bu insanları "ölüm yuxusuna batıran" "ölülərin dirilməsi əhvalatına cani-dildən inanmaqları" idisə, deməli, həm də Şeyx Nəsrullah idi. Bu qədər insanın Şeyx Nəsrullahın barmağında dolanmasının səbəbi kimi dini fanatizm, cahillik, din, elmsizlik və s. kimi səbəblər kifayət qədər qeyd olunub və əsaslandırılıb. Burada digər bir məsələ isə bu mühitin kütlə olması və kütlə psixologiyasına uyğun hərəkət etməsi idi. Təsadüfi deyil ki, Şeyx Nəsrullahın ölüləri diriltmə xəbərinin səhnəyə gəlişi özündən əvvəl baş verir. Fransız psixoloqu və sosioloqu Güstav Le Bon başçıların kütləyə təsdiqləmə, təkrarlama və yoluxdurma kimi üsullarla təsir göstərdiyini qeyd edir. "Yoluxma eyni vaxtda bir neçə fərdin eyni yerdə olmasını tələb etmir; onun təsiri məsafədən, fikirlərin istiqamətini müəyyən mənada yönəldən və ona kütləyə uyğun müəyyən çalar verən müəyyən hadisələrin təsiri altında təzahür edə bilər" (4, s.251). Beləliklə, Nəsrullah fəaliyyət göstərəcəyi zəmini əvvəlcədən hazırlayır. Yazıçı Anar "Cəlil Məmmədquluzadə ensiklopediyası"na yazdığı ön sözdə məhz "Ölülər"in müasirliyini həm də onunla şərtləndirir ki, əsərdə çağdaş dünyamız üçün aktual olan totalitarizm, sürü psixologiyası kimi problemlər əsasdır (1, s.19). Bu, pyesin və əsərin timsalında Cəlil Məmmədquluzadənin yalnız milli yox, həm də qlobal sənətkar olduğunu, qoyduğu problemlərin hələ də bəşəri səviyyədə həllini gözlədiyini sübut edir.

**Nəticə**

Mirzə Cəlilin "Ölülər"i Azərbaycan ədəbiyyatı tarixində mənəvi ölülüyə həsr olunmuş proqram əsər hesab olunmaqla yazıldığı gündən etibarən elmi ictimaiyyətin diqqətini çəksə də, hər dövrdə fərqli yanaşma metodları ilə yenidən müraciət olunmalı əsərlərdəndir. Çünki ölüm anlayışının qazana biləcəyi bütün semantik çalarlar əsərdə mükəmməl sənətkarlıq xüsusiyyətlərini özündə ehtiva etməklə əks olunmuşdur. Əsərdə dirilərin ölülüyü problemini qeyri-adi filoloji və tənqidi təfəkkürü ilə XX əsrin sonlarındakı Azərbaycanın ictimai-siyasi vəziyyəti baxımından müasirləşdirən Yaşar Qarayev qəbiristanlıq səhnəsində ölüləri diriltmək məsələsi Şeyx Nəsrullahdan asılı olanda adamların canfəşanlıq göstərdiyini, özlərindən asılı olanda isə dağılışıb getmələrini xatırladaraq yazırdı: "Bizim də

suverenliyimiz nə vaxta qədər ki imperiyadan ... asılı idi, ... müstəqillik tələb edirdik. Amma o vaxt ki müstəqilliyi ... qorumaq bizim özümüzdən asılı oldu, hərə bir tərəfə çəkildi" (7, s.238). Mirzə Cəlilə görə, yalnız dini fanatizm və cahillik deyil, ətalət və təqlid də ölülük meyarıdır. Nəticədə, əsərdə ölüm yalnız fiziki yoxluğu deyil, ağıl və iradənin olmadığını ifadə edən ətalətin ekvivalenti sayılır. Bu xüsusiyyətlərə sahib insanın isə bu mühitdə yaşamasının çətinliyi İskəndərin timsalında aydın əks olunur.

**Оттенки тишины метафоры смерти, или момент восстания слова**
**(На основе пьесы Джалила Мамедкулизаде «Мёртвые»)**
**Резюме**

В настоящей статье предметом анализа является пьеса «Мёртвые» выдающегося азербайджанского писателя, драматурга и публициста Джалила Мамедкулизаде. Цель исследования заключается в выявлении сущности условно-метафорических интерпретаций, которые играют исключительную роль в истории азербайджанской литературы. Такой подход позволяет более корректно раскрыть идейно-художественное содержание трагикомедии, не искажая авторский замысел. Феномен смерти в творчестве Джалила Мамедкулизаде охватывает все смысловые уровни данного понятия и выражается с высокой степенью художественного мастерства. Анализ показывает, что смерть символизирует не только невежество и фанатизм среды, против которых ведёт борьбу Искендер, но также статичность и «могильное молчание», порождённые этими явлениями. Причины подобных социальных бед заключаются как в духовной деградации и ложных верованиях общества, так и в существовании таких фигур, как шейх Насрулла, обладающих способностью влиять на массы и глубоко понимать их психологию. Основная задача автора состоит в том, чтобы с предельной резкостью и непримиримостью разоблачить именно ту среду, которая подготовила почву для деятельности Насруллы.

**NURIDA İSMAYIL**

**The Shades of Silence in the Death Metaphor, or the Moment of Word's Revolt (Based on Jalil Mammadguluzadeh's play *"The Dead")***
**Abstract**

This article analyzes the play *"The Dead"* by the prominent Azerbaijani prose writer, dramatist, and publicist Jalil Mammadguluzadeh. The aim is to uncover the true essence of the conditional-metaphorical interpretations that hold exceptional significance in the history of Azerbaijani literature. Such an approach enables a more accurate representation of the ideological and artistic content of the tragicomedy without distorting the author's intention. The phenomenon of death in Jalil Mammadguluzadeh's work encompasses all semantic layers of this concept and is expressed with remarkable artistic mastery. The analysis reveals that death

symbolizes not only the ignorance and fanaticism of the environment against which Iskandar struggles, but also the static nature and "grave silence" arising from these conditions. The causes of such social afflictions lie both in the moral decay and false beliefs of society, and in the existence of figures like Sheikh Nasrullah, who possess the ability to influence the masses and deeply understand their psychology. The author's primary objective, however, is to expose—through a sharp and uncompromising stance—the very environment that prepared the ground for Nasrullah's activity.

**Ədəbiyyat**

1. Cəlil Məmmədquluzadə ensiklopediyası. Bakı: Şərq-Qərb, 2008, 320 s.
2. Əlimirzəyev Xalid. Dahi sənətkar, böyük vətəndaş, Bakı: Elm və təhsil, 2010, 684 s.
3. Əlimirzəyev Xalid. Problemlər və xarakterlər dramaturgiyası, Bakı: Yazıçı, 1979, 355 s.
4. Güstav Le Bon. Kütlə psixologiyası, Bakı: Zəkioğlu, 2006, 327 s.
5. Hüseynov Firidun. "Molla Nəsrəddin" və mollanəsrəddinçilər, Bakı: Yazıçı, 1986, 279 s.
6. İbrahimov Mirzə. Böyük demokrat, Bakı: Azərnəşr, 1939, 160 s.
7. Qarayev Yaşar. Seçilmiş əsərləri (5 cilddə), IV cild, Bakı: Elm, 2016, 776 s.
8. Qasımov Cəlal. Ədəbi məhkəmələr. Bakı: "Zərdabi LTD" MMC, 2012, 304 s.
9. Məmmədquluzadə Cəlil. Seçilmiş əsərləri, Bakı: Kitab klubu, 2017, 600 s.
10. Mirəhmədov Əziz. Azərbaycan ədəbiyyatına dair tədqiqlər (XIX-XX əsrlər) , Bakı: Maarif, 1983, 364 s.
11. Salamoğlu Təyyar. XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının aktual problemləri, Bakı: Elm və təhsil, 2021, 664 s.
12. Sultanlı Vaqif. Azərbaycan ədəbi tənqidi, Bakı: Nurlar, 2019, 321 s.
13. Vəliyev Məsud. Cəlil Məmmədquluzadənin dramaturgiyası, Bakı: Azərnəşr, 1954, 112 s.
14. Yusifli Cavanşir. Gülüş və dünyanın sonu. Bakı: Elm, 1997, 136 s.

**Rəyçi: prof. Vaqif Sultanlı**